# Tarixin qanlı səhifəsi–20 Yanvar

## Şəhidlər qəlblərdə yaşayacaqdır

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində 18 yanvar 2013- cü il tarixdə 20 yanvar hadisələri ilə bağlı anım günü keçirilmişdir. Əvvəlcə mərkəzin bütün mühəndis-pedoqoji kollektivi və şagirdləri şəhidlərimizin ruhunu bir dəqiqəlik sükutla yad etdilər.

Tədris mərkəzinin direktoru E. Kazımov kollektivə müraciətlə bildirdi ki, 20 Yanvar faciəsi tarixdə Azərbaycan xalqının sadəcə anım günü deyil. Unutmamalıyıq ki, həmin gün küçələri boyamış al şəhid qanı bir anlamda milli təfəkkürümüzün, oyanan günəşinin qırmızı şəfəqini simvolizə edirdi. Xalqımız istiqlalı yolunda ikən gecə üstünə şığıyan dəhşətli kabusa , sovet hərbi güclərinin qorxunc qaragüruhuna qarşı sinəsini verməyi, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı.

Sonra mərkəzin İngilis dili müəllimi N. Ağayeva geniş məruzə edərək 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusunun erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror aktı barədə danışdı. O, qeyd etdi ki, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Mixail Qorbaçov başda olmaqla imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqı qarşısına qoyduğu məqsəddən geri dönməyəcək, mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirəcəkdir.



Tədris Mərkəzinin tədris istehsalat işləri üzrə direktor müavini R. Məmmədova 20 yanvar hadisəsi haqqında çıxış edərək qeyd etdi ki, öldürülənlər arasında beş millətin nümayəndəsi, hətta qadınlar və uşaqlar da, qocalar da var idi. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən , öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər.

Mərkəzin ixtisas fənn müəllimi A.İslamov o günlərin canlı şahidi kimi gənc nəslə müstəqilliyimiz uğrunda şəhid olan insanların xatirəsini daim əziz tutmağı, onları heç zaman unutmamağı tövsiyə etdi.

Şagirdlərdən Ə. Ənvərzadə, M. Abbasov və H. Cabbarov gənclər adından çıxış edərək əminliklə bildirdilər ki, onlar vətənə sədaqətli övlad kimi yetişəcək, əsil vətəndaş kimi xalqımızın müstəqilliyinin qorunub saxlanmasında fəal iştirak edəcəklər.

Tədbirin sonunda rayon icra hakimiyyətinin məsul işçisi Yaşar Nəzirov çıxış edərək bildirdi ki, Azərbaycan xalqının böyük oğlu, ümummilli lider Heydər Əliyev özünə və ailəsinə qarşı olan təhlükələrə baxmayaraq Moskvadakı Azərbaycanın daimi nümayəndəliyində mətbuat işçiləri qarşısında bəyanat verərək SSRİ rəhbərliyini, M. Qorbaçovun siyasətini pislədi, faciəyə öz qəti etirazını bildirdi. 20 Yanvar faciəsi Azərbaycan xalqını nəinki qorxuda bildi, hətta səfərbər etdi, onun azadlıq və müstəqillik uğrunda mübarizəsini gücləndirdi. Vətən şəhidlərini heç vaxt unutmayacaq.

20 Yanvar—Ümumxalq Hüzn Günü olmaqla bərabər, həm də xalqımızı azadlığa, müstəqilliyə aparan yola yaxınlaşdırdı.

**Hökümə EYVAZOVA,**
**tədris mərkəzinin müəllimi.**

## Amansız qətl azadlıq əzmini qıra bilmədi

Qəbələlilər 23 il bundan əvvəl sovet imperiyasının hərb maşının Azərbaycanda törətdiyi dəhşətli faciələrə həsr edilmiş geniş tədbirlər keçirmişdir. 20 Yanvar hadisələri Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsi tarixinin həm faciəli, həm də şanlı səhifələrindən biridir. Azərbaycan xalqının azadlıq uğrunda mübarizə əzminin qırılmasına yönədilmiş bu qırğın azərbaycanlıların birliyini, həmrəyliyini daha da möhkəmləndirmiş, onların müstəqilliyə qovuşmaq əzmini qat-qat gücləndirmişdir.

20 Yanvar faciəsinin 23-cü ildönümü ilə bağlı yanvarın 17-də rayonun peşə məktəbində keçirilən yığıncaqda daha geniş söhbət getmişdir. Yığıncağı giriş sözü ilə açan məktəbin müəllimi Zenfira Hüseynovanın təklifi ilə qanlı 20 Yanvar hadisələrində şəhid olan insanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. O, sonra 20 Yanvar faciəsinin baş verməsində təqsiri olan Azərbaycanın o vaxtkı rəhbərlərinin, siyasi qüvvələrin liderlərinin, bütövlükdə «Bakı əməliyyatında» bu və ya digər şəkildə əli olanların adlarını açıqladı. Zenfira Hüseynova 1990-cı il 20 Yanvar gecəsi baş verən hadisələri təsvir etməyin mənəvi cəhətdən ağır olduğunu qeyd etmişdir. O, bu cür anma tədbirlərinin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırmışlar.

(Ardı 5-ci səhifədə).

## Qəhrəmanlıq salnaməsi

20 yanvar faciəsi ilə əlaqədar rayon incəsənət məktəbində də geniş tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə məktəbin direktoru Əhməd Qəndiyev açmışdır. Onun təklifi ilə Yanvar faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur. Sonra Ə. Qəndiyev tədbir iştirakçılarına ermənilərin rus imperiyasının yüksək rütbəli rəhbərləri ilə birləşərək şaxtalı-boranlı qış günlərində Azərbaycana qarşı haqsız iddialarından qəzəblənib küçələrə çıxan dinc əhalinin güllə-borana tutulmasını xatırlatdı.

Məktəbin direktor müavini Ədibə Məmmədova 20 Yanvar faciəsi barədə məruzə etdi. Ə. Məmmədova məruzədə qeyd etdi ki, sovet imperiyasının Azərbaycana qarşı genosid siyasətinin tərkib hissəsini təşkil edən, insan hüquq və azadlığının kütləvi pozulması ilə nəticələnən və tarixə 20 Yanvar faciəsi kimi daxil olan o müdhiş gecədən iyirmi üç il keçməsinə baxmayaraq, hər bir soydaşımıza elə gəlir ki, bu qanlı faciə elə indicə baş vermişdir. XX əsrdə insanlığa qarşı yönəldilmiş zorakılığın, qeyri-insani rəftarın, işgəncələrin ən dəhşətli səhifələrindən biri olan bu faciə xalqımızın qan yddaşına əbədi həkk olunmuşdur.

Bu müdhiş faciə bəşər tarixində dövlətin öz vətəndaşlarına qarşı törətdiyi ən qatı cinayətlərdən biri, misilsiz vəhşilik nümunəsi kimi sovet imperiyasının bədnam tarixinə həkk olunmuş qara səhifələrdəndir.

Şəhidlərimizin xatirəsini əbədiləşdirmək üçün ucaldılmış əzəmətli abidələr, onların uyuduğu torpaq hər bir soydaşımız üçün müqəddəsdir. Şəhidlərimizi yaşatmaqla biz xalqımızı ucaldırıq. Onların əziz xatirəsini nəsildən-nəsilə ötürmək hər birimizin vətəndaşlıq borcudur. Azərbaycan Respublikasının Prezidentinin fərmanına əsasən, 20 yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək, həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına «20 Yanvar şəhidi» fəxri adı verilmiş, 20 Yanvar faciəsi zamanı əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılmışdır.

Təəssüf hissi ilə qeyd edilmişdir ki, kütləvi insan hüquqlarının pozulması ilə nəticələnmiş 20 Yanvar faciəsinə bu günə kimi beynəlxalq səviyyədə hüquqi qiymət verilməmişdir.

Məktəbin digər müəllim və şagirdlərinin çıxışları zamanı həmin gün xalqımızın qəhrəmanlıq salnaməsi olduğu da qeyd edilmişdir. Sonda rəssamlıq qurupu şagirdlərinin 20 Yanvara həsr olunmuş sərgisinə baxış keçirilmişdir.

**Səhrab UMUYEV.**